## Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin «Sertifikatlaşma və qeydiyyat» pəncərələrindən xidmətlərin alınması üçün tələb olunan sənədlər

| | |
|---|---|
| Xidmətin adı: | **1. Qida məhsulları sahəsində fəaliyyət göstərən subyektlərin qida təhlükəsizliyi qeydiyyatına alınması və dövlət reyestrindən çıxarışın verilməsi** |
| Tələb olunan sənədlər: | -ərizə<br>-ərizəçi fiziki şəxs olduqda -şəxsiyyətini təsdiq edən sənədin surəti;<br>-ərizəçinin vergi ödəyicisi kimi uçota alınması haqqında şəhadətnamənin surəti;<br>-hüquqi şəxsin dövlət reyestrindən çıxarışının surəti;<br>- ərizəçinin nümayəndəsi müraciət etdikdə onun səlahiyyətlərini təsdiq edən sənəd;<br>- ərizədə qeyd olunan obyektlərdən hər biri üzərində ərizəçinin mülkiyyət, istifadə və ya icarə hüququnu təsdiq edən sənədin surəti;<br>- ərizəçi idxalçı və ya xarici təsərrüfat subyekti olduqda ixracatçı ölkənin səlahiyyətli orqanı tərəfindən subyektin (onun obyektinin) qeydiyyata alınmasını təsdiq edən sənəd və məhsulun təhlükəsizliyini xarakterizə edən müvafiq sertifikatın (mövcud olduqda) notariat qaydasında təsdiq edilmiş surəti<br>- dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd. |
| Dövlət rüsumunun məbləği: | 150 manat |
| Tələb olunan müddət: | 7 iş günü |

**Qeyd 1:** Ərizədə və ona əlavə edilmiş sənədlərdə çatışmazlıqlar aşkar edildikdə, subyektlərin qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə, gigiyenik, baytarlıq və fitosanitar tələblərə uyğunluğunun təmin edilməsi məqsədi ilə fəaliyyətinin yoxlanılması, yeyinti məhsullarının ekspertizadan keçirilməsi zamanı tətbiq olunan müddətlər qeyd olunan müddətə daxil edilmir.

**Qeyd 2:** Qida məhsulları sahəsində fəaliyyət göstərən subyektlərin qida təhlükəsizliyi qeydiyyatı zamanı göstərilən xidmətlərin dəyəri yuxarıda qeyd olunan məbləğə aid deyil.